AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU

*Əlyazması hüququnda*

ŞAKİR DAYANDUR OĞLU CƏFƏROV

# HÜSEYN CAVİDİN QADIN QƏHRƏMANLARI

**5716.01 - Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı - 2015**

Dissertasiya Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Himalay Ənvər oğlu Qasımov**
filologiya üzrə elmlər doktoru,
professor

**Rəsmi opponentlər:** **Kamran İmran oğlu Əliyev**
filologiya üzrə elmlər doktoru,
professor

**Mahirə Həmid qızı Quliyeva**
filologiya üzrə elmlər doktoru,
dosent

**Aparıcı müəssisə: Bakı Slavyan Universitetinin Azərbaycan ədəbiyyatı kafedrası.**

Müdafiə « 22 » « 09 » 2015-ci il saat « »- da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyaların müdafiəsini kesirən D.01.131- Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az1143, Bakı, H.Cavid prospekti 115, AMEA Nizami adına
Ədəbiyyat İnstitutunun Elektron Akt zalı (IVmərtəbə)
Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtorefarat « » « » 2015-ci ildə göndərilmişdir.

**D 01.131- Dissertasiya Şurasının**
**elmi katibi, filologiya**
**üzrə elmlər doktoru,**
**professor:** **İmamverdi Yavər oğlu Həmidov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** H.Cavid yaradıcılığı Azərbaycan romantizmi tarixində özünəməxsus bir yer tutur. İnsan ruhunun, onun gerçək aləmə münasibətinin öyrənilməsində çox böyük əhəmiyyəti olan H.Cavid romantizminin tədqiqi, ideyalar aləminin müxtəlif aspektlərdən öyrənilməsi, tarixə və çağdaş zamana münasibətinin qabarıq şəkildə tədqiqata cəlb edilməsi, məfkurəsinin dərindən araşdırılması ədəbiyyatşünaslığımızın həmişə aktual problemlərindən olmuşdur.

Həqiqət budur ki, H.Cavid dünyasının tanrısı gözəllik və sevgi, şah əsəri insandır. Şairin yaradıcılığında bədii həllini tapmış problemlər yenidir, müasir həyatımızla və gələcəklə bağlı xüsusiyyətləri ilə seçilir. Kökə, vətənə, xalqa bağlılıq, milli-mənəvi dəyərləri qorumaq əzmi uğrunda mücahid olan H.Cavidin yaradıcılığında ana - qadın şəxsiyyətinə və ləyaqətinə dərin hörmət və ehtiram ifadə olunmuşdur. O, əsərlərində Şərq qadınının əzablarına, üzləşdiyi agır vəziyyətə, altun və dəbdəbə arzusu ilə yaşayanların taleyinə acıyır, kimsəyə açılmamış, gizli dərd-qəmdən vərəm olmuş Şərq qadınının halına yanır. Onun əsərlərinin qəhrəmanları şikayətlər və acı xatirələrlə yaşayan məhkum insanlardir.

H.Cavidin əsərlərindən bizə bəlli olur ki, şair qadını ailədə, ictimai həyatda daimi azad və sərbəst görmək istəmişdir. O, ictimayətin və elmin inkişafını qadının mənəvi aləmi ilə bağlayırdı. Ona görə qadın azadlığı olmadan, heç bir quruluşdan, əsl insani azadlıqdan və mədəni yüksəlişdən danışmağa dəyməz. Şairin qadın qəhrəmanlarında birliyə, idraka, hakimiyyətə və ehtirasa güclü meyl vardır. Yaradıcılığında xüsusi yer tutan «Qadın», «Öksüz Ənvər», «İlk Bahar», «Qız məktəbində», «Çiçək sevgisi», «Şərq qadını» şeirlərində və «Azər» poemasının «Azad əsirlər», «Səlmanın səsi» kimi parçalarında qadın-ana obrazının bənzərsiz, təkrarolunmaz simalarını yaratmışdır. Yaradıcılığının əsasını təşkil edən dram əsərlərində isə orijinal qadın surətləri özünəməxsusluğu, xarakter bütövlüyü ilə xüsusilə fərqlənir və sevilir. Qadınların taleyi ilə daha çox maraqlanan dramaturq ayrı-ayrı surətləri dərindən səciyyələndirmiş və onların daxili aləmini açmışdır.

«Ana» (İsmət, Səlma), «Maral» (Humay, Maral), «Şeyx Sənan» (Xumar, Zəhra) və «Uçurum» (Gövərçin) faciələrindəki qadın surətləri səciyyəvi xüsusiyyətləri etibarilə bir-birlərindən fərqlənir. Aparılan tədqiqatlar və monoqrafik mənbələrlə tanışlıqdan sonra Hüseyn Cavidin dram əsərlərindəki qadınların xarakter xüsusiyyətlərinə görə dörd tipə bölünməsi məqsədəuyğundur:

1. Böyük ürəkli, ağıllı, ədalətə güvənən, dərrakəli, sədaqətli, mələk timsallı qadınlar (Səlma, Humay, Nazlı, Xədicə, Dilşad, Xumar, Sima, Firəngiz)

2. Məkrli, hiyləgər, siyasətçi, iblisanə qadınlar (Şəmsa, Südabə, Rəna, Afət, Olqa)

3. Cariyyə tipli, rəqqasə qadınlar (Anjellər)

4. Adi həyatları ilə mübarizəsiz barışan siravi qadınlar (Zəhra, Əzra, Nina,Vəfa, Səfa, Alagöz, Altunsaç, Lena, Ema, Natella)

Şairin düşüncələri, insanı və dünyanı necə görmək istəyi, bədii-fəlsəfi konsepsiyası və bütün bunların qadın qəhrəmanların timsalı əsasında üzə çıxarılmağın tətbiqi sistemli şəkildə öyrənilməmişdir. H.Cavidin yaratdıgı qəhrəmanları ziddiyyətli xarakterik keyfiyyətlərinə görə ədəbiyyatşünaslıqda uzun müddət mübahisə predmetinə çevrilmişdir.

Bu problemlərin tədqiqi və araşdırılması da öz aktuallığı ilə seçilir. Müasir ədəbiyyatşünaslığımızın bir çox problemlərinin elmi müstəvidə həlli baxımından H.Cavid yaradıcılığına müxtəlif istiqamətlərdən müraciət etmək olar ki, bunlardan biri də ədibin qadın qəhrəmanlarıdır.

Göstərdiyimiz cəhətlər və müəllifin ideya-sənətkarlıq xüsusiyyətlərinin üzə çıxarılmasında qadın qəhrəmanlarının müstəsna rolu olduğunu göstərmir, tədqiqatın müasir ədəbiyyatşünaslıq üçün nə qədər aktual olduğunu göstərir. Qeyd etməliyik ki, bu günə kimi şairin poeziyasında, pyeslərində qadın qəhrəmanları ayrıca tədqiq olunmamış və bu mövzuda dissertasiya işi yazılmamışdır.

Bu gün H.Cavid və onun qadın dünyasını göstərmək üçün mövcud tədqiqatlara, monoqrafiyalara əsaslanmaqla Şərq və Qərb kontekstində aparılan tədqiqatların dərinləşdirilməsinə böyük ehtiyac var. Ədibin yaradıcılığı o qədər geniş, rəngarəng və mürəkkəbdir ki, hər dəfə buna müraciət edəndə yeni motivlərlə, xüsusiyyətlərlə qarşılaşırıq. H.Cavid yaradıcılığını bütünlükdə öyrənmək və dərk etmək çətindir. Çünki onun yaradıcılığı şair-filosof və dramaturq düşüncəsindən yaranmış hikmət xəzinəsi, ideyaları dərin, geniş, çoxsahəli, orijinal və ziddiyyətlidir. Ona görə də tədqiq etdiyimiz bu mövzu öz aktuallığı ilə digər tədqiqat əsərlərindən fərqlənir.

**Mövzunun tədqiqi tarixi.** H.Cavidin poeziyası və dramaturgiyası şairin yaşayıb-yaratdığı dövrdən başlayaraq bu günümüzədək yazıçı və tənqidçilərin, ədəbiyyatşünasların diqqətini cəlb edib. Mustafa Quliyev, Hənəfi Zeynallı, Məmməd Cəfər , Cəfər Cabbarlı, Abdulla Şaiq, Səməd Vurğun, Məmməd Arif, Əkbər Ağayev, Abbas Zamanov, Yaşar Qarayev, Əli Sultanlı, Cəfər Xəndan və başqalarının müxtəlif vaxtlarda

cavidşünaslığa töhfə etdikləri dəyərli tədqiqat əsərləri bu qəbildəndir. H.Cavidin tənqidçiləri onun öz dövründə və sonrakı dövrlərdə də araşdırmalarında şairin yaradıcılığını diqqət mərkəzində saxlamışlar. H.Cavid haqqında yazılanların böyük qismi isə təftiş xarakterli yazılar idi. Ümumiyyətlə, milli ədəbiyyat tariximizdə H.Cavid qədər araşdırılan ikinci sənətkar yoxdur. Fikrimizcə, H.Cavidin ən mükəmməl tədqiqatçısı Məmməd Cəfər, ən «ədalətli tənqidçisi» isə Hənəfi Zeynallı olmuşdur.

Ədəbiyyatşünas alim Təyyar Salamoğlu (Cavadov) «Ədəbi tənqid tarixinə dair portret - oçerklər kitabı»nda yazır ki, H.Zeynallının yüksək qiymət verdiyi sənətkarlardan biri H.Cavid olmuşdur.[1] Tədqi qatlarında o, H.Cavidi «ümumun sevimlisi olan bir şairimiz» adlandırır. Bu ifadədə tənqidçinin şairin sənətinə məhəbbətini görməmək mümkün deyil. 1923-1926-cı il illər arasında şairin yaradıcılığına dörd məqalə («Şeyda» xüsusunda qısa mülahizə» (1923), «Maral» xüsusunda qısa mülahizə» (1923), «H.Cavidin yazdığı «Peyğəmbər» haqqında mülahizələrim» (1926) və «Şeyx Sənan» haqqında mülahizələrim» (1926) həsr etməsi də müəyyn mənada bu məhəbbətin ifadəsidir. Həm də H.Zeynallının H.Cavid yaradıcılığına verdiyi təhlillərdə də vulqar-sosioloji yanaşma öz izlərini qoymuşdur».

Tədqiqatçılar əksər hallarda dövrə, zamana uyaraq mövcud ideologiyanın təsirilə, totalitar rejimin təzyiqilə H.Cavid sənətinə ürəklə yanaşmamış, onu dərindən mütaliə etməmiş, H.Cavid yaradıcılığının mürəkkəb, təzadlı, polifonik rəngarəngliyini dərk etməkdə çətinlik çəkmiş, üstəlik onu vulqar sosiolgizm mövqeyindən tənqid etmiş və təbii olaraq yanlış nəticələrə gəlmişdilər. 1920-ci illərdən bu tərəfə cavidşünaslıq uzun və çətin bir yol keçmişdir. H.Cavidin yaradıcılığına, o cümlədən dramlarına münasibət birmənalı olmamışdır.

H.Cavid haqqında tədqiqatlar davam və inkişaf etsə də, cavidşünaslığın tədqiq edilməmiş sahələri yetərincədir. Xüsusilə bu gün müstəqil Azərbaycanı-mızda dinə, ədəbiyyata, sənətə münasibət dəyişmiş və bu dəyişmə H.Cavidə münasibətdə də öz əksini tapmışdır. Bunun nəticəsidir ki, H.Cavidin əsərlərində qadın, onun şəxsiyyəti, mənəvi yüksəlişi, daxili mübarizəsi kimi məsələlər tədqiqatda ön plana çəkilmişdir.

Dramaturqun irsinin öyrənilməsində 1980-ci illər yalnız elmi-nəzəri fikrin dərinliyi ilə deyil, onun əsərlərinə münasibətin yeniliyi və müasirliyi ilə səciyyələnir. Hətta təkrar çap olunmuş tədqiqatların yeni nəşrlərində də müəyyən məsələlərə yenidən qayıtmaq, onları müasir mövqedən qiymətləndirmək halları nəzərə çarpır.

*Salamoğlu T.(Cavadov). Ədəbi tənqid tarixinə dair portret-oçerklər. Bakı, 2013, səh.102 -110*

H.Cavid haqqındakı son tədqiqatlarda onun yaradıcılığına yeni meyarlarla yanaşmaq, yeni konsepsiyalar mövqeyindən qiymət vermək, ən yaxşı cəhətlər kimi özünü göstərir. Bu, hər şeydən əvvəl, ədəbi-elmi fikrin H.Cavid ənənələrinin mahiyyətini açmaq, bu əsərləri romantizmin poetikasına uyğun şəkildə araşdırmaq, bədii məzmunda ifadə olunan ideyanı obyektiv surətdə təqdim etmək səyləri ilə əlaqədardır.

Doğrudur, Cavidşünaslıqda, ədəbi tənqiddə öz fikir və arqumentləri və məntiqi gücünü təsdiq edən Y.Qarayev, T.Əfəndiyev, M.Əlioğlu, Ə.İbadoğlu, Ə.İsmayılov, Z.Əkbər, K.Əliyev, H.Qasımov, R.Əhmədov, Z.Əsgərli, T.Məmməd, R.Nəbioğlu, N.Əzizova, L. Əsgərzadə, A.Turan və başqalarının H.Cavidlə bağlı apardıqları tədqiqat işləri qiymətlidir. Eyni zamanda V.Osmanlının «Azərbaycan romantikləri», B.Vahabzadənin «Dərin qatlara işıq», T.Əfəndiyevin «Cavidin ideyalar aləmi», M.Məmmədovun «Acı fəryadlar, şirin arzular», S. Xəlilovun «Cavid fəlsəfəsi», «Cavid və Cabbarlı müxtəlifliyin vəhdəti», R.Hüseynovun «Vaxtdan uca», A.Turanın «Hüsni-Xuda şairi», «Əbədi Turan», «Cavid əfəndi», «Cavidnamə», N.Əzizovanın «H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı», K.Əliyevin «H.Cavidin şəxsiyyəti və poetikası», A.Həsənoğlunun «Ürfan işığında», Y.Qarayevin «Sənətkar və tarix», Elçinin «Sübh şəfəqinin aydınlığında», L. Əsgərzadənin «Hüseyn Cavid və Şərq» və s. bu qəbildən olan digər araşdırmalarda H.Cavid sənəti geniş kontekstilə çağdaş elmi-nəzəri düşüncə müstəvisinə çıxarılmış, konseptual əsasda geniş təhlil edilmişdir.

H.Cavid yaradıcılığı ikinci vətəni sayılan Türkiyədə də kifayət qədər tədqiq olunub. M.H.Türkəqulun «Hüseyn Cavid», Y.Gediklinin «H.Cavid Rasizadənin «İblis» və «Uçurum» əsərləri üzərində bir çalışma», Özdemir Cihanın «Hüseyn Cavidin tarixi dramları», doktor Ənvər Uzunun «H.Cavid və Türkiyə ədəbibiyyatı» adlı araşdırmaları deyilənlərə əyani misaldır.

Ümumiyyətlə, Cavid irsinin öyrənilməsində ədəbiyyatşünaslıq elmi müəyyən uğurlar əldə etmişdir. Bu orijinal yaradıcılıq yeni-yeni tədqiqat əsərlərinin yazılmasına, ədəbiyyatımızın çox mühüm problemlərinin araşdırılmasına imkan verir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Hüseyn Cavid yaradıcılığı təşkil edir. H.Cavidin romantik qadın qəhrəmanları araşdırmanın başlıca tədqiq obyekti kimi götürülmüş, onların psixoloji təkamülü, fərqli xarakter xüsusiyyətləri, özünəməxsus, fərdi insani keyfiyyətləri diqqətlə izlənmişdir. Dramaturqun yaradıcılığındakı qadın obrazları

bir-biri ilə müqayisəli şəkildə təhlil edilmiş, müasir dramaturgiyada qadın probleminin bədii həllində bu obrazların yeri müəyyənləşdirilmişdir.

Tədqiqatın predmetini isə H.Cavidin lirika örnəkləri və dramaturji əsərləri təşkil edir. Böyük sənətkarın yaradıcılıq nümunələri bütöv halda araşdırmanın hədəfi kimi nəzərdə tutulur.

Qadın probleminin açıqlanması, H.Cavidin qadın qəhrəmanlarına ədəbi -nəzəri münasibətin aydınlaşdırılması üçün milli ədəbiyyatşünaslığımızda yer alan elmi-nəzəri fikir və qənaətlər, bir sıra dini, elmi, məfkurəvi problemlərin dolğun şərhini vermək üçün müraciət olunan tarixi qaynaqlar və şəxsi arxivində qorunan əlyazma və qeydlər tədqiqatın əsas predmetidir.

**Tədqiqatın məqsəd və vəzifələri .** Araşdırmanın əsas məqsədi Hüseyn Cavidin yaradıcılığında önəmli yer tutan qadın qəhrəmanlarını bütöv və sistemli şəkildə, müqayisələrlə müasir elmi-nəzəri baxış kontekstində tədqiq etmək, böyük sənətkarın yaradıcılığında qadın probleminin qoyuluşu, təkamülü və həlli məsələlərini araşdırmaqdır.

Bu elmi məqsədin reallaşdırılması üçün aşağıdakı mühüm vəzifələri yerinə yetirmək nəzərdə tutulur:

- H.Cavidin əsərlərində qadın probleminin xarakterik xüsusiyyətlərini üzə çıxarmaq;
- Şairin lirikasında qadın qəhrəmanlarının milli, ruhi-mənəvi özəlliyini səciyyələndirmək;
- H.Cavidin qadın xarakterinin romantik bədii təcəssüm özünəməxsusluğuna diqqət yetirmək;
- XX əsr Azərbaycan gerçəkliyi və şairin lirik şeirlərində qadın obrazları məsələsinə münasibət bildirmək;
- H.Cavidin dram əsərlərində qadın surətlərinin müqayisəli səciyyəsini vermək, onların mənəvi təkamülünü tədqiq etmək;
- Dramaturqun pyeslərində qadınların daxili aləmini, onların taleyini, mənəvi yaşantılarını və psixoloji vəziyyətlərini aydınlaşdırmaq;
- Şairin qadın qəhrəmanlarının zahiri ilə batini arasındakı ziddiyyətlərin bədii inikasını şərh etmək;
- Dünya ədəbiyyatındakı qadın obrazları ilə H.Cavidin qadın qəhrəmanlarını müqayisəli şəkildə təhlil etmək;
- H.Cavidin qadın qəhrəmanlarının xüsusiyyətlərini digər əsərlərdə yaradılmış qadın obrazlarından fərqləndirmək.

**Tədqiqatın metodologiyası.** Tədqiqatda Hüseyn Cavidin qadın qəhrəmanları tarixi-müqayisəli və analitik təhlil metodları əsasında öyrənilmişdir. Dissertasiya işində müasir Azərbaycan ədəbiyyatşünaslığının nəzəri müddəaları əsas götürülməklə, analoji tədqiqatların təcrübə və nəticələrindən

istifadə olunmuş, görkəmli elmi-nəzəri fikir sahiblərinin tədqiqatlarına istinad edilmişdir**.** Çağdaş elmi prinsiplər əsasında aparılan Azərbaycan və dünya ədəbiyyatşünaslığındakı araşdırmalarda tələblərə cavab verən elmi qənaətlər və fikirlər metodoloji əsas kimi götürülmüşdür.

**Tədqiqatın elmi yeniliyi.** H.Cavidin qadın qəhrəmanları daha çox şairin yaradıcılığına həsr olunmuş monoqrafiyalarda və tədqiqat işlərində səthi şəkildə izah edilmişdir. Bu qəhrəmanlar haqqında müxtəlif səpkidə maraqlı fikirlər irəli sürülsə də, ədibin qadın obrazları indiyədək geniş aspektdə öyrənilməmiş, müstəqil araşdırma obyektinə çevrilməmişdir. Dissertasiyanın elmi yeniliyi ilk növbədə onunla şərtlənir ki, Hüseyn Cavid yaradıcılığında bədii həllini tapmış qadın obrazları ilk dəfə olaraq bütövlükdə və sistemli şəkildə tədqiq edilir.

Dissertasiyada ilk dəfə bu qəhrəmanları bir-birindən fərqləndirən xarakter xüsusiyyətlər üzə çıxarılır, bu xüsusiyyyətlərə görə şairin qadın obrazları müəyyən qruplara ayrılır, onlara çağdaş elmi müstəvidə münasibət bildirilir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** H.Cavid yaradıcılığının fərqli istiqamətdən araşdırılması elmi işin nəzəri əhəmiyyətini təşkil edir. Dissertasiyanın başlıca müddəa və nəticələri XX əsr Azərbaycan ədəbiyyatı tarixinin, H.Cavid yaradıcılığının, ümumilikdə, Azərbaycan ədəbiyyatında qadın probleminin tədqiqində faydalı ola bilər.

Tədqiqatın nəticələrindən Müasir Azərbaycan ədəbiyyatının, eləcə də seçmə fənnlərin tədrisində, ali məktəblərin filologiya fakültələrində xüsisi kurs və seminarların təşkilində, həmçinin orta ixtisas və ümumtəhsil məktəblərində istifadə etmək olar.

**Tədqiqatın aprobasiyası.** «Hüseyn Cavidin qadın qəhrəmanları» mövzusunda dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında işlənib hazırlanmışdır. Tədqiqat işinin mövzusu Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasının və AMEA-nın humanitar və ictimai elmlər bölməsinin Ədəbiyyatşünaslıq üzrə Problem Şurasının qərarları ilə təsdiq edilmişdir.

Tədqiqatın əsas elmi nəticələri elmi jurnalda dərc olunmuş 13 məqalədə və tədqiqatçının elmi konfranslarda etdiyi məruzulərdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, üç fəsil, altı yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın «Giriş» hissəsində mövzunun aktuallığı, elmi yeniliyi, təcrübi əhəmiyyəti əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası müəyyənləşdirilir.

Dissertasiyanın **I fəsli «H.CAVİDİN POEZİYASINDA QADIN QƏHRƏMANLARININ MİLLİ, RUHİ-MƏNƏVİ ÖZƏLLİYİ»** adlanır. «H.Cavidin poeziyasında qadın xarakterinin romantik bədii təcəssümü» adlı *birinci yarımfəsildə* qadın xarakterinin romantik bədii təcəssümündən bəhs edilir. «Öksüz Ənvər», «İlk bahar», «Qız məktəbində», «Çıçək sevgisi», «Şərq qadını» , «Qadın» şeirlərində və «Azər» poemasının «Azad əsrlər», «Səlmanın səsi» və başqa parçalarında H.Cavidin qadın, ana obrazına ayrıca müraciət etməsi önə şəkilir. Anaya dərin ehtiram və məhəbbətlə yanaşan H.Cavid ana-qadın obrazını ilk dəfə lirik şeirlərində, sonra isə dram əsərlərində yaratmışdır. Artıq ideal həyat axtarışı ilə yanaşı yeni şeir üslubu da yaranmağa başlamışdı. Belə bir vaxtda H.Cavid cəmiyyətdə mövqe tutmaq istəyən uca, dəyanətli qadına aid özünün «Qadın» şeirində yazmışdır:

Anasız millət, əvət öksüzdür
Sənin aləmdə (ailəndə) vəzifən, hissən
Nə böyük, həm nə ağırdır bilsən?! **2**

Sözsüz ki, H.Cavidin qadınla bağlı o zamankı şeirləri onun gələcək dramlarındakı qadın obrazlarının kiçik nümunələri idi. Onun 1913-cü ildə Tiflisdə çap olunan ilk kitabının «Keçmiş günlər» adlandırılması da təsadüfi deyildir. Əslində «Keçmiş günlər» geniş mənada tarixi yaddaş və hətta uzaq gələcəyin əsası olan bir yaddaşdır. Bu vaxt «İqbal» qəzeti H.Cavidi Qafqazın ən füsunkar mühərrir və şairlərindən biri hesab edirdi. Çünki şairin qələmində Şəfiqənin ağrıları dil açır («Məsud və Şəfiqə»), açılmad an solan bir gözəlin qüssəsi dalğalanır («Otuz yaşında») və uyuyan qadını mübaizəyə çağırış nidaları səslənirdi («Qadın»).

H.Cavid lirik şeirlərində ümumi və romantik pafosla sanki bütün Şərq qadınlarına müraciət edib deyirdi: «Bu qədər ki, səndə lətafət və nəcabət var, nə üçün səbr edirsən, əsarətə və həqarətə dözürsən?! Ağlamaqla heç kim, hətta əriniz rəhmə gəlib fəryadınızı duymayacaqdır. Göz yaşları ilə hüququnuzu bərpa edə bilməyəcəksiniz.Yalnız çalışmaqla, mübarizə aparmaqla «pərdeyi-zülmət içindən sıyrılıb» qəhrəmanlar kimi çıxmaq olar».**3**

*2.Cavid H. Əsərləri. 5 cilddə, I c., Bakı: Elm, 2007, səh.12-52*
*3.Yenə orada:səh.79*

Həmçinin lirik bir tərzdə qadın gözəlliyinin milli kolorotini təsvir edən «Pənbə çarşaf» şeiri H.Cavidin ən çox tənqidə məruz qalan əsəri ollmuşdur. M.Hadidən başlayaraq, bir neçə tənqidçi nəslinin nümayəndələri bu şeirə öz münasibətlərini bildirmişlər. Romantik və lirik bir ovqatın gördüyü həyat lövhəsinin, çarşafa bürünmüş bir gözəlin təsviri kimi müəllifin ifadə etdiyi «Pənbə çarşaf» şeiri şairin yaradıcılığının müəyyən mərhələsinin bariz nümunəsidir.

H.Cavidə görə, cahanda sevgisiz yaşamaq mümkün deyil və bütün inkişafı, gözəlliyi yalnız məhəbbətin vasitəsilə qorumaq olar. O, qadınların müxtəlif quruluşlarda sevmək və sevilmək hüququndan məhrum olmalarına acıyır və onların həyat şəraitinin ağırlığı şairin ürəyinin başına od salırdı. «Bakıda» şeirində qəhrəmanı Şəfiqənin dili ilə deyirdi ki, həyatın dibində çırpınan bu zərif məxluqun çoxunun könlündə «gizli bir işvə var», lakin bu yazıqları «bəlayi-məişət həyatı məhv edəcək». «Ağır dəmirlərin altında», neft buruqlarında əzilən bu zavallıların məhəbbətləri, ləyaqətləri əzilir və onların varlıqları zəhərlənirdi. İşin ağırlığı onları gənc yaşlarından çiçək kimi soldurur, qarsır və bənizlərinə ləkə salırdı. Qadının bu ağır kölə həyatına yanan şair yazırdı: «Çocuq - cocuq, ana, həmşirə, qız, nişanlı, gəlin- vətəndə həm gözü yollarda müztərib, qəmgin...», cəhənnəm bir çölü andıran bu «hisli, çamurlu buruqlarda» «yığın-yığın bəşəriyyət» həyatı güldürəcək bir ümidlə yaşayır, çalışır, əlləşir, zəhərli qazlardan udub yarpaqtək solur. Ağır zəhmət və dərddən saralmış qadınların həyat əlaməti söndüyünə görə onlardan doğulacaq uşaqların da səadəti qaranlıq və təhlükəlidir.**4** Şairə görə, dərin məzar içində «uyğuya dalmış» bədbəxtlərlə bu çamurluqda çalışan qadınların arasında fərq yoxdur.

«Şərq qadını» şeirində H.Cavid artıq qadının üsyankar səsini dinləyir. Keçmişin ən qaba, ən vicdansız, kirli dırnaqları ilə didilən Şərq qadınının dili ilə şair deyir ki, doğulan gündən tarixin paslı zəncirləri inlətdi məni, gün işığı görmədim. Hər tərəfdən qara bir mövhumat pərdələr çəkdi gözlərimə.

Şairin ilk poemalarından olan «Hübuti - Adəm» əsərində, istərsə də bəşəriyyət ilk anlarından Adəmlə Həvvanın bolluqdakı, firavanlıqdakı-ikilikdəki həyatlarını cənnət adlandırmışdır. İblis də (bu şər mələyin adı Rafaeldir) araya girənə qədər onlar cənnətdə xoşbəxt bir həyat yaşamışdılar. İblisin şirin

*4.Cavid H. Əsərləri. 5 cilddə, I c., Bakı: Elm, 2007, səh.100-171*

və yalan vədlərinə inanan, uyan Həvva nənəmiz qadağan olunmuş ağacın (məhəbbət, elm, idrak, günah) meyvəsindən dadandan sonra cənnətdən qovularaq Adəmdən ayrılmış və düz yetmiş il bu hicranın peşmançılığı ilə bağlı göz yaşları axıtmışdır.

«XX əsr Azərbaycan gerçəkliyi və şairin lirik şeirlərində qadın surətləri» adlanan *ikinci yarımfəsildə* H.Cavidin lirikasında «balaca adamların», cəmiyyət tərəfindən müdafiə edilməyin kimsəsiz və köməksiz, sadə insanların ləyaqətini müdafiəyə dair daha bir sıra fikirlərlə qarşılaşırıq. «Qız məktəbində» , «Qadın» , «Sevinmə, gülmə, quzum» adlı şeirlərin lirik qəhrəmanı kimi təsvir olunan qadın və uşaqlar şairin hümanizmini şərtləndirən və bu hümanizmə məxsus keyfiyyətləri ümumiləşdirən bədii obrazlardır.

Qadın şairin nəzərincə «incə xilqət, nəvazişkar və müqəddəs anadır. O, cəmiyyəti çirkin qaba münasibətlərin, zülm və dəhşətlərin pəncəsindən xilas edəcək mənəvi gözəlliyin timsalıdır. Lakin bu yüksək və ali vücud cəmiyyəti bürümüş zülmün və fəsadın girdabında, mənəvi əsarət zəncirində boğulmaqdadır. Qadın, ana hüququnun müdafiə edilməsi, qadının nəvaziş, zəriflik və paklıq rəmzi olaraq layiqincə qiymətləndirilməsi, qadına bəslənən qaba, xudbin münasibətlər şairin insanpərvərlik hisslərinin beşiyi olan qəlbini daim incidir və narahat edir».**5**

Şairin «Keçmiş günlər» və «Bahar şəbnəmləri» adlı kitablarında və «Vərəmli bir qız» və «Bir qızın son fəryadı» şeirlərində qadınların hüquqsuzluğuna və əsarətdə qalmasına kəskin etiraz səsləri ucalır. Qadınların ağır məhrumiyyətlərə düşməsinə şair ürəkdən acıyır və onları mübarizəyə çağırır. Mənfur köhnə adət - ənənələrin, feodal əxlaq normalarının qurbanı olan, dərdi başından aşmış, kimsəyə açılmamış gizli qəmlərin əlindən vərəm olmış Şərq qadınının, Azərbaycan qızları və gəlinlərinin fəryadı, «altun və dəbdəbə» əsiri olan yüksək cəmiyyət gözəllərinin vəfasızlığı ucundan həyat və səadətdən əbədilik əlini üzmüş gənclərin məhv olmuş əməlləri bu süjetli şeirlərin məzmununu təşkil edir.

Yaxud, müasir həyatın başqa bir lövhəsi hər bir hüququ tapdalanmış, bütün arzuları gözündə, əsarətdə yaşayan gənc Azərbaycan qızı, öz dərdlərini yaxın bir adama demək imkanından belə məhrumdur. O, qəmli ürəyini ancaq təbiətə, aya, ulduza aça bilmir. Bəxtiyar səyyarələr isə nə bilirlər ki, yerlərdə əsarətdə yaşayan şərqli qızlar nə çəkirlər («Bir qızın son fəryadı» şeiri).

H.Cavidin «Otuz yaşında» adlı şeirində isə qəmli günlər keçirən, açılmadan solan qadınların acınacaqlı həyatı təsvir edilmişdir. Şairin qələmə aldığı qadın ərə, ataya, qardaşa, yavan çörəyə, geyimə, şirin sözə, xoş baxışa möhtacdır. Eyni zamanda «Görmədim», «Çoban türküsü», «Neçin», «Məyus bir qəlbin fəryadı» və başqa şeirlərində də qadın azadlığı problemini ortaya qoyur.

*5.Əfəndiyev T. H.Cavidin İlk qadın qəhrəmanları. Bakı, Azərbaycan SSR EA-nın Xəbərləri, Ədəbiyyat, dil və incəsənət, 1975, № 2, səh. 42-46*

Bu şeirlərdə altun düşgünü, şöhrət əsiri, həqiqi sevgidən uzaq olan qadın tiplərinə də rast gəlirik. Bu da təsadüfi deyildir. Kapitalizmin sürətlə inkişaf etdiyi illərdə kubar qadınlar şöhrət düşgünü olmaqla həqiqi sevgiyə biganə idilər. Şair belə qadınları tənqid edirdi.

Şairin «Məsud və Şəfiqə» adlı şeiri onun maddı varlıqla insan idealının uyuşmaması və birləşməməsinin səbəblərinə dair qənaətlərini öyrənmək baxımından çox əhəmiyyətlidir.

M.Əlioğlu yazır ki, «H.Cavidin lirikası-xəyal və həqiqətin tərənnümündən ibarətdir: Müstəqim görünən həqiqət yox, xəyal və təsəvvürdə yaranan həqiqət gözəldir».**6**

Şairə görə qadın unutmamalıdır ki, hər şeydən əvvəl həyatın nurlu mənbəyi anadır. Həyatını öz xalqına və vətəninə həsr etməyə qadir olan qadının bəzəyi süni boyalar, gözləri qamışdıran qaş-daş deyil, onun bəzəyi təmizlikdir

«Azər» poemasında şair Sosialist inqilabını, Aprel səhərini, Sovet Azərbaycanında mədəni inqilab uğrunda gedən mübarizəni, Azərbaycan qadınlarının yeni, azad həyatını sevinc və iftixar hissi ilə tərənnüm etmişdir.

H.Cavidə görə, qadını qiymətləndirməyən, onun əməllərindən, nəşəsindən zövq almayan adamla, yırtıcı qaplan, zəhərli ilan, canavar arasında fərq yoxdur. Bu sənətdə haqq, vətən, qadın və xoşbəxtlik («həqq, vətən, zövqi-səadət, cənnət») bir-birinin sinonimi kimi tərənnüm olunur və bunların qorunmasında güc, qılınc ən təsirli vasitələr kimi götürülür.

**«H.CAVİDİN ƏSƏRLƏRINDƏKİ QADINLARIN MƏNƏVİ TƏKAMÜLÜ»** adlanan II fəslin «H.Cavidin dram əsərlərində qadın surətlərinin səciyyəsi» adlanan *birinci yarımfəslində* H.Cavid lirik şeirlərində olduğu kimi dram əsərlərində də bir sıra orijinal qadın surətlərinin geniş təhlili təqdim edilir. «Ana», «Maral», «Afət» və başqa əsərlərindəki qadın surətləri səciyyələri etibarilə bir-birlərindən fərqlənirlər. Hərənin özünəməxsus xüsusiyyətləri vardır

*6.Əlioğlu M. H.Cavidin romantizmi. Bakı: Azərnəşr, 1975, səh.35-37*

H.Cavid dramaturgiyaya həcm etibarilə yıgcam, lakin ideya-bədii və əxlaqi-mənəvi dəyərinə görə mühüm əhəmiyyət kəsb edən «Ana» (1910) adlı mənzum pyesi ilə gəlmişdir.**7**

Əsərdə baş verən hadisələrin mərkəzində Səlma ana dayanır. Səlma ana türk qadınının mərdlik, mübarizlik, qeyrət qalasıdır. «Ana» dramında Hüseyn Cavid türk qadınının mərdanə hərəkətini əks etdirməyə çalışıb. Ana evinə qəbul etdiyi qonağın oğlunun qatili olduğunu bilincə nə qədər sarsılsa da «Qonaq Allah qonağıdır», «Qonağa zaval yoxdur» - düşüncəsində bulunaraq dözümlük və mətanət göstərir;- «amandasan» - deyərək verdiyi sözün arxasında durduğunu nümayiş etdirir. Əsər faciəvi bir sonluqla bitsə də Səlma ananın möhtəşəm obrazı milli xarakterik xüsusiyyətləri ilə yaddaşlarda dərin iz salır.

Dramaturq Səlma ana obrazı ilə nəinki Azərbaycan ədəbiyyatında, ümumiyyətlə, bütün Şərq ədəbiyyatında ideal ana obrazı yaratmışdır.

Biz buna oxşar halla A.Şaiqin 1908- ci ildə yazdığı «Ədhəm» poemasında rast gəlirik. Burada Ədhəm oğlunun qatilini öz evində tapır, cəza vermək əvəzinə, mərhəmət göstərib, yaralarını müalicə edir. Onun bu alicənablığı qatil Ədili mənən sarsıdır və daxilən saflaşdırır. Vicdan əzablarına dözə bilməyən Ədil öz-özünü intihar edir. «Ana» pyesindəki Murad da, Səlmanın alicənablığı qarşısında duruş gətirə bilməyərək özünü öldürmək istəyir, lakin qan tökülməsinin qəti əleyhdarı olan H.Cavid A.Şaiqdən fərqli olaraq, əsərində ananı bir az da romantikləşdirib, onun əli ilə imkan vermir ki, qatil özünü öldürsün, onu öz vicdanının mühakiməsinə buraxır» **.8**

Əsərdə ikinci qadın surəti olan İsmət xasiyyəti və mənəvi - psixoloji varlığı arasında bir əkizlik duyulan bu dağıstanlı qızı da özünün rəftarında, əxlaqi keyfiyyətlərində əsl igidə, cəngavərə məxsus fədakarlıq nümünəsi göstərir. İsmət, şərəf və namus məsələsində, doğrudan da, anaya və nişanlısı Qanpolada layiq bir qızdır.

Mərhəmətli olmaq H.Cavidin digər «Afət» əsərindəki Alagöz obrazında da özünü göstərir. Atasını öldürən analığın etiraflarından sonra başa düşən Alagöz nəinki bağışlayır, hətta ona olan məhəbbəti də azalmır. Burada bir məqama fikir vermək lazımdır ki, bu əsərlərdə yoldan çıxanlar yox, onlara uyanlar bağışlanılır. Əsərdə Səlmanın bağışladığı Muradı onun oğlunu öldürməyə sövq edən Orxan da, Afəti qoca qatili edən Qaratay da başqaları tərəfindən öz cəzalarını alırlar. Ona görə, «H.Caviddə mərhəmət və məhəbbət şeytana yox, onun yoldan azdırdıqlarına və son anda günahlarını anlayanlara qarşıdır. Bununla da müəllif günahkarı bağışlayan insanın böyüklüyünü, yaradanına

*7.Himalay Ənvəroglu (Qasımov) Sənət və sənətkarlıq məsələləri yeni düşüncə müstəvisində. Bakı: «Elm və təhsil» 2001, səh.9*

*8.Aslanov Y. H.Cavidin söz dünyası. Bakı: Elm, 2007, səh.190-193*

bənzəyişini göstərir. Səlma öz alicənablığı, Afət gözəllik və məhəbbət, Maral namusu, Alagöz təmizliyi ilə sınaq qarşısında qalır».

Akademik M.Cəfərin qeyd etdiyi kimi, «Maral» faciəsində H. Cavid irəli getmiş, onun həyat müşahidələri daha da zənginləşmişdir. Şair mühitin daha yaxşı xüsusiyyətlərini, adamlarını dərk etmiş, ictimai konfliktləri ilk dramına nisbətən daha aydın göstərə bilmişdir».**9**

H.Cavidə qədər bu mövzuya müraciət edib müxtəlif janrlarda əsərlər yazan sənətkarlar çox olmuşdur, lakin faciə janrında qadın hüquqsuzlu mövzusunu ədəbiyyatımıza gətirən ilk sənətkar H.Cavid olmuşdur.

Maral obrazında H.Cavid Şərq qızlarına məxsus xarakterik xüsusiyyətləri, çox yüksək bədiiliklə cəmləşdirə bilmişdir. Maral azadlığı, sərbəstliyi dünyanın bütün nemətlərindən üstün tutan, təmiz qəlbli, azad ruhlu, sevməyi, duymağı bacaran bir gəncdir.

Bir sosioloji problem və millətin faciəsi kimi məsələlər hələ H.Cavidə qədər M.F.Axundzadə, C.Məmmədquluzadə, M.Ə.Sabir və başqa görkəmli ədiblərimizi də dərindən düşündürmüş və narahat etmişdir. Təsadüfi deyil ki, N.Vəzirovun qadın qəhrəmanlarından biri olan Səadət xanım mövcud ictimai quruluşdan, feodal qayda-qanunlarından zinhara gələrək-«Bu xaraba vilayətdə insaf qalmayıb, mürüvvət qalmayıb» - deyə, zəmanəsinin vəhşi qanunlarından, adətlərindən şikayətlənir.

«Feodal dünyası Maralların, Səadətlərin, Zöhrələrin səmimi duyğularını, nəcib arzularını, saf-təmiz eşqlərini məhbus etmişdir. Onlar xoşbəxt olmaq istəyirlər, hətta mənfur mühitə qarşı müəyyən dərəcədə etiraz edirlər».

«Dramaturqun pyeslərindəki qadınların daxili aləmi və onların taleyi» adlı *ikinci yarımfəsildə* feodalizm qanunlarının hökm sürdüyü bir cəmiyyətdə, heç bir hüququ olmayan qadınların nəcib arzularının, şəxsiyyətlərinin ayaqlar altında tapdalanması, onların zinhara gəlməsindən bəhs edilir.

Böyük dramaturqun qadın azadlığının təbliği ilə bağlı yazdığı əsərlərinin içərisində «Maral» (1912) dramının özünəməxsus yeri var: «Ailə-məişət zəminində yazılmış əsərin baş qəhrəmanı 16 yaşlı, istəyi nəzərə alınmadan özündən 32 yaş böyük olan, mal-mülk sahibi Turxan bəyə verilmiş Maraldır. Maral feodal Azərbaycanının əşya kimi alınıb satıla bilən minlərlə acı taleli qızların ümumiləşdirilmiş obrazıdır».**10**

Burjua-meşşan cəmiyyətindəki əxlaqsızlıqların qurbanı olan qadınların acınacaqlı, faciəli vəziyyətini H.Cavid «Uçurum» faciəsində də göstərmişdir. Bu əsərdə şair cəmi iki qadın surəti

*9.Cəfərov M.C. Ədəbi düşüncələr. Bakı: Azərnəşr, 1958, səh.158*
*10.Əliyev K. H.Cavidin şəxsiyyəti və poetikası. Bakı: Yazıçı, 1977, səh.54*

yaratmışdır. Bunlardan biri Şərqin bütün mənəvi-əxlaqi keyfiyyətlərini özündə daşıyan Gövərçin, digəri isə Qərbin burjua-meşşan cəmiyyətinin pozduğu şər qüvvəni təmsil edən şeytan ruhlu Anjeldir.

Tənqidçilərimizin bir çoxunun Gövərçinin ailə faciəsini ümumi Şərq qadınlarının acınacaqlı taleyi kimi göstərmək cəhdləri, fikrimizcə, həqiqətə uyğun deyildir. Əsərdə Gövərçin xoş arzularla yaşayan, əri Cəlalı təmiz məhəbbətlə sevən, öz namusunu hər şeydən yüksək tutan, öz şəxsiyyətinə hörmət edən bir qızdır. Lakin onun bu təmiz məhəbbəti ayaqlar altında tapdalanır, şəxsiyyəti alçalır, xoş arzuları tarmar olur, həyatda yeganə ümidi olan qızını itirir və nəhayət, «nifrət, bütün ömrə, həyata nifrət» - deyə, yaşadığı cəmiyyətə, həyata öz nifrətini bildirir.

Buradan bizə məlum olur ki, H.Cavidin əsərlərindəki qadın surətləri eyni səviyyədə dünyagörüşə malik deyildilər. Bu qadınlar apardıqları mübarizədə də fərqlənirlər.

Əsərdən məlum olur ki, Gövərçin kimi Anjel də bədbəxtdir. Amma bu iki obraz bir-birindən tammamilə fərqlidir. Ümumbəşəri mahiyyət daşıyan qadınlıq faciəsi hər iki obrazın taleyində müxtəlif formalarda olsa da, öz təcəssümünü tapa bilmişdir.

Deməli, H.Cavidin istər etiqad, istərsə də mənəviyyat, xarakter və şəxsiyyət cəhətcə bir-birindən tamamilə fərqlənən ilk qadın qəhrəmanlarını ümumi bir cəhət bir-birinə yaxınlaşdırır ki, bu da zamanın, ictimai quruluşun əmələ gətirdiyi gerçəklikdir.

H.Cavidin yaradıcılığında çox mühüm yer tutan əsərlərindən biri də «Şeyx Sənan» faciəsidir.

Əsərdə surətlər canlıdır, müasir dövrlə səsləşir. Xumarın gölgəsi əfsanə ilə bağlı olduğu üçün əsərin bu cəhətini süstləşdirmir.

Əsərin qadın qəhrəmanı olan gürcü qızı Xumar həyatda xoşbəxtliyə inanmayan, dindar bir qızdır. O, anasının vəsiyyətinə əsaslanaraq, ailə qurmağı, ərə getməyi təhlükəli bir uçurum sanır, kişilərin vəfasına şübhə edərək, həyatdan uzaqlaşıb monastıra getməyi arzu edir. Lakin hadisələrin sonrakı

inkişafında «sevdiyim yalnız eşqi-ruhani», «daha könlümdə qeyri eşqə, inan, yer bulunmaz» söyləyən Şeyx Sənan da, monastır arzulayan Xumar da həyatın mənasını məhəbbətdə görürlər.

Əsərin final nöqtəsində Sənan da, Xumar da cismən məhv olsalar da, ruhən yaşayır və yüksəlirlər. Obrazlı desək, onların bu böyük məhəbbəti sankı fəzalara yüksələrək, cəmiyyətdə hökm sürən çirkinliyi, rəzaləti seyr edir. Bu mövcud cəmiyyətə gülür.

1920-ci ilə qədər yaratdığı surətlər içərisində H.Cavidin humanist ideallarına ən yaxını Şeyx Sənan ilə gürcü qızı Xumardır. Bu surətlərlə dramaturq həyatda hakim olan mövhumata, cəhalətə, insanları bir-birindən ayıran dinə, məzhəbə, irqi fərqə, rəzalət dünyasına üsyan edir. Bu surətlərin romantik boyalarla ideallaşdırılması dramaturqun qayəsini mücərrədləşdirmir, əksinə onlara həyat nəfəsi verir.

H.Cavidin ilk tənqidçisi və tədqiqatçısı olan H.Zeynallı «Şeyx Sənan»ı «xalis romantik əsər» hesab edir və əsərdəki inikas üsulu heç bir vəchlə tənqidçinin bu əsəri sənət nümunəsi kimi dəyərləndirilməsinə mane olmur.**11** Y.Qarayevin aşağıdakı qiymətləndirilməsi də bu mənada çox səciyyəvidir: «Əslində «Şeyx Sənan», «İblis» və «Peyğəmbər» bir-birindən doğan, eyni fəlsəfi təlim və eyni estetik mövqeyi ifadə edən bədii üçlükdür».**12** H.Zeynallının «Şeyx Sənan» və «Peyğəmbəri»i qiymətləndirilməsindəki elmi- metodoloji yanlışlıq bu əsərləri ideya və fəlsəfi məzmunca «bir-birindən doğan» əsərlər kimi yox, biri-birini inkar edən əsərlər kimi dəyərləndirilməsində üzə çıxır.

Fikrimizcə, H.Zeynallının «Peyğəmbər»ə və «Şeyx Sənan»a fərqli münasibəti onun birincini dini, ikincini isə antidini fabulalı əsər kimi dərk etməsi ilə bağlıdır.

Lakin Məhəmməd Füzulinin «Leyli və Məcnun» əsərindəki Leyli Hüseyn Cavidin əsərindəki Xumar kimi bu dünyada deyil, yalnız öldükdən sonra, yəni «küll»ə vəhdətdə arzularına çata bildilər. Ölümdən sonra «zərrənin küllə qovuşması, ilahi nurda əriməsi, bu sufi təfəkkürü üçün ən ülvi və ən müqəddəs ölüm idi».

Ümumiyyətlə, M.Füzuli ilə H.Caviddə eyniyyət təşkil edən məsələlər çoxdur. Məsələn, M.Füzuli də insanın mənəvi azadlıq probleminə «Leyli və Məcnun»da toxunur, orta əsr qadınına münasibət məsələsi onu narahat edir. Şərq qadınının acı, kədərli taleyi şairin qələmi ilə çox böyük ustalıqla əks olunur. Yaşadığı mühitə münasibət, qadının cəmiyyətdəki yeri «dözülməz» idi və bu mütəfəkkir M.Füzulini düşündürən məsələlərdən idi. Qadın hüquqsuz idi, heç bir azadlığı yox idi. Əsərdə bunu Leylinin dili ilə göstərirdi.

*11.Salamoğlu T.(Cavadov). Ədəbi tənqid tarixinə dair portret-oçerklər. Bakı, 2013, səh.111*
*12.Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1996, səh.72*

**«H.CAVİDİN QADIN QƏHRƏMANLARININ ZAHİRİ İLƏ BATİNİ ARASINDAKI ZİDDİYYƏTLƏRİN BƏDİİ İNİKASI» adlanan III fəslin** «Dünya ədəbiyyatındakı qadın obrazları ilə H.Cavidin qadın qəhrəmanlarının müqayisəli şəkildə tədqiqi» adlanan *birinci yarımfəslində* dünya ədəbiyyatında qadınların səkkiz tipinin qeydə alınmasından bəhs edilir. Dünya ədəbiyyatı tarixinə diqqət yetirdikdə bir həqiqət də meydana çıxır-müxtəlif dövrlərdə yaşamış sənət korifeyləri, yeri gəldikcə, özlərindən əvvəl işlənmiş süjetlərə müraciət etmiş və hər bir sənətkar hadisələrə dövrün möhrünü vurmağa çalışmışdır.

Qeyd etmək lazımdır ki, məhəbbət qəhrəmanlarının əksəriyyəti seçdikləri qızın, qadının yüksəkliyi ilə bağlı məşhurlaşmışlar. Necə ki, Koroğlu Həsən paşanın qızı Nigar xanıma görə, Lev Tolstoyun «Anna Karenina» romanının qəhrəmanı qraf Vronski ailəli qadın Anna Kareninaya görə, «Afət»də Qaratay Afətə görə, «Xosrov və Şirin»də Xosrov Şirinə görə tanınmıslar.

Bütün dövrlərdə müdrik qadınlar öz ədalətli fikirləri ilə kişilərə yol göstərmişlər. «Dünyanı gəzən müdrik İsgəndərə həqiqət dərsini Bərdədə Nüşabə, Asiyanı dolaşan filosof Sənana isə həqiqət işığını Qafqazda Xumar nişan verir. H.Cavid ənənəyə də qlobal miqyasda nəzər salır».

Lev Tolstoyun «Anna Karenina» romanındakı Annaya qarşı Vronski diqqətli, qayğıkeş, həssas, öz fərdi xüsusiyyətlərinə görə seçilən məhəbbəti uğrunda hər dəqiqə hər şeyə hazır olan, hətta öz xidməti vəzifəsini qurban verən bir kişidir. O, təkcə Anna Kareninanın yox, hər hər bir qadının arzusuna olan bir obyektdir».

Anna Vronskiyə görə səhv etmir. Annaya görə bir dəfə özünü güllə ilə vuran Vronski Annadan sonra heç kəsi sevmir.

Biz belə bir alicənablığı Qaratayda görmürük. Qaratay onun uğrunda gedən Afəti başqa qadınlara dəyişməklə, nəinki özünün adiliyini, şərəfsizliyini təsdiq edir, o, hətta Afəti adiləşdirib heçə endirmək istəyir. Lakin Afət öz qəti hərəkətləri və ölümü ilə yüksəkliyini təsdiqləyib, onu qəti ifşa edir.

Rus yazıçılarından Gertsen, Çernışevski, Dobrolyubov, Pisarev və b. qadın emansipasiyasını məhdud mənada-mütləqiyyət rejiminə qarşı mübarizə ilə bağlayırdılar, onlar haqqında əhəmiyyətli fikirlər

də irəli sürmüşdülər. Hətta Pisarevin «Pisemski, Turgenev və Qonçarovun roman və povestlərində qadın tipləri» məqaləsindəki «Qadın heç bir şeydə günahkar deyil» - ifadəsi qanadlı söz lər sırasına daxil olmuşdu. Müasir dövrümüzün problemləri çərçivəsindən çıxış edilərsə, onda bədii ədəbiyyatın gender mənzərəsi bizi bir çox məsələlərin inkişafı və problemlərin həlli yollarından hali etmiş olar. Əsrimizin mühüm amillərindən olan qloballaşma, informasiyalaşma, demokratik cəmiyyətin qurulması kimi vəzifələrin uğurla yerinə yetirilməsində qadın amilinin təsiri, rolu və gücü inkaredilməzdir. Azərbaycan ədəbiyyatında, folklor nümunələrində, eləcə də «Dədə Qorqud» boylarından ta bu günümüzə qədərki bədii yaddaşımızda yaşayan ananın haqqı, ana məhəbbəti, anaya-qadına hörmət, sədaqət, ləyaqət anlayışları ilə cilvələnmişdir.

H.Cavidin dramaturgiyasındakı qadın obrazları daha çox əbədi məhəbbət, sevgi hissi ilə baglı olan insanlardır. Şairin «Şeyx Sənan» faciəsi haqqında çoxlu sayda fikirlər vardır. Bu fikirlərdən biri budur ki, niyə H.Cavid kimi mütəfəkkir şair Şeyx Sənan kimi bir mürşidi xristian qızı Xumara aşıq etmiş və bu yolda Şeyx Sənan, hətta iki il donuz otarmağa razı olmuşdur...

Ədibin fikrincə məhəbbətdə zaman və məkan ölçüsü yoxdur və məhəbbətdə millilik olmur. Necə ki, «Əsli və Kərəm» dastanında, N.Nərimanovun «Bahadur və Sona», H.Cavidin «Şeyx Sənan» əsərlərində bunları görürük. Əslində isə, olsa idi daha gözəl olardı.

Nəhəng sənətkarlar milliliyin mayasında bəşərililik, ümuminsanilik tərbiyə edir və dünya ədəbiyyatı arenasına çıxarır. Elə bu nöqtədə başqa - başqa ünvandan gəlmiş qəhrəmanlar öz bənzəyişlərini tapıb, çiyin - çiyinə dayanırlar.

Bu cəhətdən V.Şekspirin «Hamlet» faciəsi ilə H.Cavidin «Səyavüş» əsəri daha çox diqqəti cəlb edir. Hər iki əsərdə ayrı-ayrı tarixi hadisələrdən danışılsa da, görürük ki, qəhrəmanlarla bağlı faciə xəttində nə qədər oxşarlıq və yaxınlıq var. Məsələn, Hamletin, Səyavuşun da taleyinin faciəvi istiqamətini qadın xəyanəti müəyyənləşdirir.

Gertruda Hamletdən oğul məhəbbəti istəyir, Südabə isə Səyavuşdan aşna... Hər iki qadının tələbi, istəyi təbii qanunlara ziddir. Onların məhəbbət istəyi riya və məkr cövhəri ilə yoğrulmuşdur. Gertruda Hamletin şübhələrini dağıdıb, onun məhəbbətini qazanmağa çalışması ilə özünü və yeni əri olan kralı fəlakətdən xilas etmək məqsədi ilə izləyir.

Südabə bütün adət-ənənələrin, insan cəsədlərinin üstündən mətanətlə addımlamağa hazırdır, təki diləyi hasil olsun. Səyavuşa çatmaq üçün Keykavusun cəsədi üzərindən keçib getmək lazım olsaydı, hətta Südabə bundan da çəkinməzdi. Lakin Südabə Kertruda deyildir.

Südabə Şərq, Kertruda Qərb sarayına məxsus məkrli məhəbbətin və şəhvani ehtirasın qara yelkənidir. Südabə və Gərşivəz də mühitin təbiətindən doğan alçaq siyasətin məkr, hiylə əkizləri dövrün məhsuludur.

Ə.Firdovsi «Şahnamə» əsərində Südabəni əsasən hiyləgər bir qadın kimi göstərmişdir. H.Cavid isə həmin motivi saxlamaqla bərabər, bu qadının səmimi, mənəvi iztirablarını da vermişdir. H.Cavidin Südabəsi, eyni zamanda güclə saraylara salınan, öz vətənindən, elindən ayrı düşən, həyatında çox haqsızlıq gördüyü üçün sərtləşmiş, bədbəxt bir qadın, qəfəsə salınmış bir quşdur». Əsərdə konfliktin müəyyən qütblərində dayanan qadın surətləri vardır. Ə.Firdovsi dastanlarından fərqli olaraq, dramaturq burada qadın obrazlarına xüsusi diqqət yetirmişdir. Dramda verilən Südabə, Firəngiz, Rübabə və digərləri müəyyən mülahizələr üçün əsas verə biləcək obrazlardır. Bunlardan Südabə bir xarakter kimi əsərin mərkəzinə çəkilmişdir. Şərq ədəbiyyatında və folklorda hiyləgər, şəhvani duyğuların əsiri, çılğın təbiətli bir adam kimi təsvir edilən Südabə əsərdə bütün faciəsi, kədəri, bədbəxt taleyi ilə birgə verilir.

Böyük alman şairi İ.V.Hötenin «Faust» dramatik poeması ilə görkəmli Azərbaycan dramaturqu H.Cavidin «İblis» pyesi arasında mövzu və problem müxtəlifliyi göz qarşındadır. Hər iki faciənin «doğuluşu», «təvəllüdü» arasında da əlçatmaz zaman fərqi var». Bütün bunlara baxmayaraq, bu iki faciə arasında bəşərilik baxımından qohumluq və doğmalıq təkzibedilməz həqiqətdir. «Faust» və «İblis» dünya demonizm poeziyasının ən mühüm səhifələrindəndir. «Faust»la yüksək bir mərhələyə qalxan dünya demonizm poeziyası «İblis»də yeni məna və mövzu çaları ilə zənginləşir. Burada İ.V.Höte və H.Cavid də dövrün narahat və düşündürən problemlərinin fəlsəvi-estetik həllini mifoloji obrazların təcəssümündə verməyə çalışmışdır. Elə Faust da, Arif də ilk cinayət ad dımını məhəbbətlə-Qretxenə (Marqaritaya) və Rənaya olan məhəbbətlə əlaqədar atırlar.

«H.Cavidin qadın qəhrəmanlarının digər dramaturqların yaratdığı qadın surətlərindən fərqli xüsusiyyətləri» adlı *ikinci yarımfəsildə* H.Cavidin dramaturgiyasındakı qadınların təbiiliyi və səmimiliyi ilə ürəklərə yol tapmasından bəhs edilir. «Buradakı qadınlar təmiz ehtiras üçün mübarizə aparırlar və soyuqluğu yaradanlar isə kişilərdir». Kişi soyuqluğu qadın səhvətini («Uçurum»da Gövərçin) təhqir edir, onu başqa qucağa itəliyib, bədbəxt edir. H.Cavidin dramlarındakı qadınlar məhəbbət uğrunda mübarizə aparan qəmgin və yorğun gözəllərdir.**13**

*13. Xəndan R. Z. Gözəllik aşiqi: Cavidşünaslıq (araşdırmalar torlusu), I cild, Bakı: Elm,2005,səh.242-247*

XII əsrin dahi şairi Nizami Gəncəvi də yaratdığı Şirin, Fitnə, Nüşabə kimi qadın obrazları ilə türk əxlaqını digər bir xalqın əxlaqı ilə qarşılaşdırmış və üstünlüyü haqlı olaraq türkə vermişdir.

H.Cavidin qadın qəhrəmanları milliyyətindən, yaşından və ictimai mövqeyindən asılı olmayaraq ləyaqət və mənliyini qorumaq üçün hər cür fədakarlığa gedirlər. Onlar nə ədalətsiz dövlət başçılarından, nə əliqanlı cəlladlardan, nə özlərini oda-alova atmaqdan qorxurlar, nə də zəhər içməkdən, intiqam almaqdan. Yeri gələndə qatili də bağışlayırlar («Ana»da Səlma), məhəbbətləri naminə dinlərini dəyişirlər («Şeyx Sənan»da Xumar), məhəbbətləri tapdananda mahir intiqamçı olurlar («Afət»də Afət),

(«Səyavüş»də Südabə) eşqi, məhəbbəti naminə əliqanlı cəlladın da sinəsinə yeriyirlər («Topal Teymur»da Almaz) və s.

M.P.Vaqif, M.Ş.Vazeh, Q.Zakir, İ.Qutqaşınlı, A.A.Bakıxanov, N.Vəzirov, M.F.Axundov, C.Məmmdquluzadə, Y.V.Çəmənzəminli, C.Cabbarlı və yüzlərlə başqa müəlliflərin yaradıcılığındakı qadın obrazları təhlil edildikdə, qadın məsələsinə yazıçı-müəllif münasibəti ilə yanaşı, dövrün ictimai-siyasi münasibətlərinin də təsirini görmək çətin deyil. Azərbaycan yazıçılarının yaratdığı zəngin qadın obrazları qalereyası bu baxımdan öz tədqiqatçılarını gözləyir.

XX əsrdə demokratik sivilizasiya öz inkişaf zirvəsinə yüksəlmiş, qadınlar da bu inkişafın ön cərgəsində özlərinə yer tuta bilmişlər. Qloballaşma ilə xarakterizə olunan çağdaş dünyamızda baş verən və onların Azərbaycan qadının şüuruna, məişətinə, sosial həyatına təsir, müasir yazıçılarımızın yaradıcılığında bədii boyalarla, tarixi faktların təhlili kontekstində öz əksini tapmışdır.

«**Nəticə**»də dissertasiyanın əsas elmi müddəaları öz əksini tapmışdır. H.Cavidin istər dram əsərlərində, istərsə də şeirlərində qadın obrazları ətraflı, müqayisəli şəkildə təhlil olunmuş və ədibin çoxcəhətli yaradıcılıq fəaliyyəti geniş mülahizələrlə ümumiləşdirilmişdir.

Azərbaycanın filosof şair-dramaturqu H.Cavid milli, milli olduğu qədər də bəşəri sənətkardır. O, Esxil, Evripid, Sofokl, Dante, Höte, Bayron, Şiller, Puşkin, Lermontov, Dostoyevski, Əbdülhəqq Hamidlə bir səviyyədə müqayisə olunub, təhlil ediləndə daha əzəmətli və qüdrətlidir.

Təpədən dırnağadək milli, milli olduğu qədər də bəşəri olan Hüseyn Cavid ilk yaradıcılıq dövrlərindən başlayaraq lirikasında və dramaturgiyasında; «Ana» və «Mara»da, habelə, daha qüvvətli və geniş şəkildə «Şeyx Sənan», «İblis», «Peyğəmbər» «Knyaz», «Topal Teymur», «Səyavüş» kimi dramlarında öz ədəbi materialını Şərq və Qərbdən almışdır və o, toxunduğu mövzu və problemlərə görə dünya ədəbiyyatının korifeyləri sırasında öz yerini tutmuşdur.

H.Cavidin ölməzliyi ondadır ki, əsərlərində təblig etdiyi ideyalar dövründə şöhrət tapmaqla bərabər, özündən sonra yaranmış bir çox mənzum dram əsərlərinin məfkurəvi bədii qayəsinə təsir göstərmişdir. «Səyavuş» pyesi müasirlik baxımından Məmməd Əmin Rəsulzadənin «Əsrimizin Səyavuşu» ilə səsləşir. S.Vurgunun «Vaqif» dramında H.Cavid ideyalarının təsiri açıq-aydın hiss olunur.

«H.Cavid hər yerdə insanı öyrənir. Bədxah insanda iblisi, xeyirxah insanda mələyi görən şairin ən böyük məqsədi insanın xoşbəxtliyini təmin edəcək yolları axtarmaq olmuşdur».**14**

**Dissertasiyanın əsas elmi nəticələri aşagıda dərc olunmuş elmi-metodiki məqalələrdə öz əksini tapmışdır.**

1. H.Cavidin əsərlərində qadın qəhrəmanlarının tale yolları («Ana», «Maral» və «Uçurum» əsərləri əsasında) - «Filologiya məsələləri» jurnalı. Bakı, AMEA , 2007, № 8, səh.173-179
2. H.Cavidin poeziyasında qadın qəhrəmanlarının ruhi - mənəvi özəlliyi - «Elmi axtarışlar» jurnalı. Bakı, AMEA, 2007, № 34, səh.119-121

*14. Əzizova N. H.Cavidin dramaturgiyasında İnsan, İblis, Tanrı («Şeyx Sənan», «İblis», «Peyğəmbər»), AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu, Bakı, 2000, səh.12*

3. H.Cavidin «Azər» poemasında qadın qəhrəmanları («Rəssamın qızı», «Nil yavrusu», «Azad əsirlər» və «Səlmanın səsi» parçaları əsasında) - «Dil və ədəbiyyat» Beynəlxalq elmi-nəzəri jurnal. Bakı, BDU, 2008, № 2 (62), səh. 235-236

4. H.Cavidin qadın qəhrəmanlarının daxili və xarici aləmində ziddiyyətlər - «Azərbaycan dili və ədəbiyyatı tədrisi» Elmi-metodik jurnal. Bakı , Təhsil Nazirliyi, 2009, №2, səh.18-23

5. H.Cavidin qadın qəhrəmanları (əsərləri əsasında) - «Filologiya məsələləri» jurnalı. Bakı, AMEA, 2010, № 8, səh. 452-456

6. H.Cavidin qadın qəhrəmanları (əsərləri əsasında) - Doktorantların və gənc tədqiqatçıların XV Respublika Elmi konfransının materialları. Bakı, BDU, 2011, səh.73-74

7. Женщины-героини в произведениях Г.Джавида «Мест сатаны» и «Пророк», філологічні науки: Зб.наук.пр / Полтава нац.пед. ун-т. імені В.Г.Короленка. Полтава, 2011, Вип.8, с. 19-22

8. H.Cavidin qadın dünyası. Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi konfrasının materialları I sild. Bakı, AMİU, 2013, səh. 331-333

9. H.Cavidin qadın qəhrəmanları («İblis», «Səyavuş» əsərləri əsasında) - «Filologiya məsələləri» jurnalı. Bakı, AMEA, 2013, № 7, səh. 250-257

10. H.Cavidin qadın qəhrəmanları («Uçurum», «Şeyx Sənan», «Şeyda» əsərləri əsasında) - «Dil və ədəbiyyat » jurnalı . Bakı, ADU, 2013, №3, səh.185-189

11. H.Cavidin əsərlərində qadın gözəllik, saflıq, incəlik və təmzlik nümunəsidir - «Elmi xəbərlər» jurnalı. Bakı, ADU, 2013, № 4, səh. 230-233

12. H.Cavid dünyasının tanrısı gözəllik və sevgi, şah əsəri insandır - Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika Elmi konfransının materialları, II cild. Bakı, ADU, 2013, səh.31-32

13. Dünya ədəbiyyatında və H.Cavidin əsərlərində olan qadın tipləri - «Elmi xəbərlər» jurnalı . Bakı, ADU, 2015, № 3, səh.239 -243

**Ш. Д. Джафаров**

# Женщины - герои Гусейн Джавида


**РЕЗЮМЕ**

Диссертационная работа состоит из введения, трех глав, шести подразделов, выводов и списка использованной литературы.

В общую характеристику работы входит актуальность темы, дата, цели и задачи, научная новизна, объект и предмет, научно-методологическая основа, научно-практическое значение и структура исследования.

В основном содержание диссертационной работы I главы называется «Духовно-нравственная черта женщин-героев в поэзии Азербайджанского рисателя Г.Джавида», где в I подразделе под названием «Художественно-романтическое олицетворение женского характера в поэзии Г.Джавида» рассказывается о художественно-романтическом олицетворении женского характера.

Во II подразделе под названием «Азербайджанские реалии XX века и женские образы в лирических стихах поэта» переданы суждения в лирике Г.Джавида о защите «маленьких людей», беспомощных и простых людей, которых общество не защищает.

В первом подразделе II главы под названием «Характеристика женских образов в драматических произведениях Г.Джавида», называемой «Нравственная эволюция женщин в произведениях Г.Джавида», в драматических произведениях Г.Джавида, как и в его лирических стихах, нашел свое отражение широкий анализ ряда оригинальных женских образов.

Во II подразделе II главы под названием «Судьба женщин в пьесах драматурга и их внутренний мир» рассказывается о том, как растаптываются под ногами благородные мечты, личность женщин в обществе, где царят феодальные законы и невежественные догматические предрассудки.

В первом подразделе III главы под названием «Художественное отражение противоречий между внешней красотой женщин-героев Г.Джавида и их духовным миром» называемой «Черты, объединяющие женщин-героев в мировой литературе и произведениях Г.Джавида», рассказывается о том что в мировой литературе выделены восемь типов женщин.

В конце, во II подразделе под названием «Своеобразие женских образов Г.Джавида и их отличительные особенности от женских образов, созданных другими драматургами», подвергнуты анализу образы некоторых женщин в драмах Г.Джавида, которые приняты обществом и образы женщин, вышедших за нормы морали.

**Sh.D.Jafarov**

# Huseyn Javid's woman heros

**SUMMARY**

The dissertation work consists of the introduction, three sections, six subsections, the result and the list of literature used.

General character of the work includes the urgency of theme, the history of research, the purpose and duties, the scientific innovation, the object and the subject, the scientific-methodological basis, the scientific-theoretical and practical importance, structure.

At the main content of the dissertation work, I section is called «The spiritual-mental feature of the woman heroes at An azerbaijani writer H.Javid's poetry» and at the second section named «The romantic artistic personification of woman character at H.Javid's poetry», it's dealt into the romantic artistic personification of woman character.

At the second subsection named «Azerbaijan reality XX century and woman images at the lyric poems of poet», it was given some thought about defence to the merit of the «small men», helpless and homeless single people who aren't defended by the sincerity at H.Javid's lyrics.

As being at the lyric poems, also H.Javid's dram plays the large analysis of original woman characters was expressed at the second subsection named «The character of woman images at H.Javid's dram plays» of the II section named «the mental evolution of women at H.Javid's plays».

It's spoken about being bored, treating under the foot the personality the noble women who haven't any right at the society that reign the feudalism laws of the religion at the second subsection named «the fortune of the women and their internal world» .

At the first subsection named «the features connecting the women heroes being at the World literature and H.Javid's plays» of III section named «The artistic reflection of the contradictions between the internal and external beauty of woman heroes of H.Javid», it was given the registration of the eight types of women at the world literature at the first subsection.

Ultimately, at the second subsection named «The originality of woman images of H.Javid and the different features that other dramaturges created from the woman images» it was analyzed some of women accepted by the society and the woman characters deviated from the moral standards at H.Javid's dramas.

**<u>НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА</u>**
**<u>ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ</u>**

**На правах рукописи**

**ŞAKİR DAƏNDUR oqlı DCAFAROV**

# CENSKİE QEROİ QUSEYNA DCAVİDA

**5716.01 - Azerbaydcanskaə literatura**

**А В Т О Р Е Ф Е Р А Т**

**dissertaüii na soiskanie nauçnoy**
**stepeni doktora filosofii po filoloqii**

**Баку - 2015**